BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sikafloor®-100 Level (AZ)

CT-C25-F6 sinfi, 2–10 mm qalınlıq üçün sement polimer tərkibli döşəmə hamarlayıcı məhlul

## TƏSVIR

Sikafloor®-100 Level (AZ), yüksək axıcılıq və səviyyə düzəltmə xasslərinə malik sement polimer tərkibli toz qarışımdır. Üst təbəqə tətbiqindən öncə alt səthin hamarlanması, düzləşdirilməsi məqsədi ilə 2-10mm qalıqlarda tətbiq edilir.

## İSTİFADƏ YERLƏRİ

Yaşayış və qeyri sənayə tikililərin daxili məkan döşəmələrində:
- Keramika plitə
- Parket, taxta örtüklər
- Vinil və linoneum örtük
- Xalı, tekstil örtüklər

kimi son qat örtüklərin altında səth hamarlayıcısı olaraq istifadə edilir.

## ÜSTÜNLÜKLƏRİ

- Özündən səviyyələnir
- Hamar bitişlidir
- Tək qatda 2-10 mm qalınlıqlıdır
- Pompalana bilən qatılıqdadır
- Xəstəxanalarda araba və xərəy trafikinə uyğundur
- Səthdə az gərilmə əmələ gətirir
- Dispersiya yapışdırıcılarına qarşı keçirməzdir

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

EN 13813 standardına uyğun olaraq CT-C25-F6 sinfidir.

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Sement əsaslı, polimer ilə təkmilləşdirilmiş |
| **Qablaşdırma** | 25 kg torba |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 6 ay. |
| **Saxlama Şərtləri** | Məhsul orijinal, açılmamış və zədələnməmiş qablaşdırmada, quru şəraitdə +5 °C ilə +35 °C arasında olan temperaturda saxlanmalıdır.<br>Təhlükəsiz işləmə və saxlama haqqında məlumat üçün cari Təhlükəsizlik Məlumat Vərəqinə baxılmalıdır. |
| **Görünüş və rəng** | Boz, toz |

## TEXNİKİ MƏLUMATLAR

| | | |
|---|---|---|
| **Sıxılma müqaviməti** | ≥ 25 N/mm² (28 günlük, 23 °C-də) | (EN 13892-2) |
| **Bükülmə gücü** | ≥ 6 N/mm² (28 günlük, +23 °C-də ) | (EN 13892-2) |

## SİSTEM MƏLUMATI

| | | |
|---|---|---|
| **Sistem strukturu** | **Astar** | **Məhsul** |
| | Beton, şap, sürətli qurumalı şaplar kimi standard hopduruculu səthlərdə | SikaLevel®-13 Primer |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Təzə qarışığın Sıxlığı** | ~ 1.9 kg/lt |
| **Sərfiyyat** | ~1.7 kg/m²/mm (toz)<br>Qeyd: İstehlak məlumatları nəzəri xarakter daşıyır və səthin məsaməliliyinə, səth profilinə, səviyyə fərqliliklərinə, itgi və ya hər hansı digər səbəblərdən qaynaqlanan əlavə material miqdarı daxil deyildir. Xüsusi səth şərtləri və təklif olunan tətbiq avadanlığı üçün dəqiq istehlakı hesablamaq üçün Məhsulu sınaq sahəsinə tətbiq edin. |
| **Təbəqə qalınlığı** | Min. 2mm / Maks. 10 mm |
| **Məhsul temperaturu** | +10°C min. / +25°C maks. |
| **Ətraf mühit temperaturu** | +10°C min. / +30°C maks. |
| **Nisbi hava rütubəti** | < 75 % |
| **Qarışdırma nisbəti** | 25 kg-lıq torba üçün 5.50-5.75 lt təmiz su. (su/toz nisbəti: 0.22-0.23). |
| **Səthin temperaturu** | +10°C min. / +25°C maks. |
| **İstifadə müddəti** | 25 dəqiqə, +20°C-də. |
| **Gözləmə müddəti** | **Önəmlidir**<br>Son qat döşəmə örtüyü tətbiq etməzdən əvvəl Sikafloor®-100 Level (AZ) materialının bərkidiyinə və örtük istehsalçısı tərəfindən tələb olunan nəmlik dəyərinə çatdığından əmin olun. (Son qat örtük Məhsulunun məlumat vərəqinə baxın).<br>Qeyd: Vaxtlar təxminidir və +20 °C (ətraf mühit) / +15 °C (səth) / 65 % r.h-də ölçülmüşdür.<br>Qeyd 1: Dəyişən səth və ətraf mühit şəraiti, təbəqə qalınlığı və qarışım suyu nisbəti tətbiq müddətinə təsir edəcəkdir.<br>Sikafloor®-100 Level (AZ) örtülmə müddəti: |

| Döşəmə örtükləri | Təbəqə qalınlığı | Gözləmə müddəti |
|---|---|---|
| Elastik Örtüklər (Vinil, PVC linoneum) | ≤ 3 mm | ~24 saat |
| Elastik Örtüklər (Vinil, PVC linoneum) | ≤ 5 mm | ~48 saat |
| Elastik Örtüklər (Vinil, PVC linoneum) | ≤ 10 mm | ~72 saat |
| Keramika plitələr | 2–10 mm | ~24 saat |

| | |
|---|---|
| **İstismara hazır olma zamanı** | Piyada keçidi: 24 saat<br>Qeyd: Müddət təxminidir, ətraf mühit şərtlərinin dəyişməsindən, xüsusən də temperatur və nisbi rütubətdən təsirlənəcəkdir |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Məhsulu, portland sementi və ya digər bağlayıcılar ilə qarışdırmayın.
- Məhsula təyin edilmiş su miqdarından artıq su əlavə etməyin. Suyun həddindən artıq əlavə edilməsi səbəbindən məhsulun performansı azalacaq.
- Məhsulu nəmliyi yüksələn səthlərə tətbiq etməyin. Artan nəmlilik ehtimalı var isə, nəmlilik əlehinə effektiv membran tətbiq edilməlidir.
- Səthdəki böyük boşluqlar, gözənəklər, dəliklər,

hazırlıq prosesi zamanı təmir edilmədikdə, bu, örtük səthini zəiflədəcək və örtüyü zədələyəcək. Tələb olunan təmir işlərini müəyyən etmək üçün səthin hazırlanması zamanı bütün boşluqlar və gözənəklər ortaya cıxarılmalıdır.
- Tətbiq öncəsi ayırıcı təbəqələr səthdən cıxarılmalıdır.
- Daima faktiki sahə şərtlərinə uyğunlaşdırılmalı olan Tətbiq Metodu Bəyanatlarında, tətbiq təlimatlarında və iş təlimatlarında müəyyən edilmiş quraşdırma prosedurlarına ciddi şəkildə əməl edilməlidir.
- Kənar və hərəkət birləşmələri bitmiş səthə daşınmlı və qarışımın dərzlərə axaraq dolmasından qorunmalıdır.
- Məhsulun, borular, kanallar, divarlar və sütunlar kimi şaquli elementlərin səthlərinə yapışmaması üçün izolyasiya lentlərindən istifadə edilməlidir.
- Təzə çəkilmiş Məhsulu yüksək ətraf mühit temperaturlarından, birbaşa günəş işığından və erkən qurumadan qoruyun.
- Sikafloor®-100 Level (AZ) ilə hamarlama işləri, keramik plitə və ya döşəmə örtüyünün istehsalçısı tərəfindən nəzərdə tutulduğu kimi yetərli qalınlığa və səth hamarlığına uyğun tətbiq edilməlidir.
- Parketlə örtüldükdə minimum təbəqə qalınlığı 5 mm olan tam səth hamarlanmasından istifadə edin.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### AVADANLIQ

**Səth hazırlama avadanlıqları**
- Aşındırıcı püskürtmə avadanlıqları
- Səth qaşıyıcı avadanlıqlar
- Səth yonucu avadanlıqlar
- Aşındırıcı qumlama avadanlıqları
- Sənaye tozsoranı, sənaye tipli vakum avadanlıqları

**Qarışdırcı avadanlıqlar**
- Tək və ya iki avarlı elekrikli qarışdırıcılar (< 500 rpm),spiralvari, diskşəkilli qarışdırıcı avarlı
- Sıyırıcı
- Təmiz qarışdırma kovası

**Tətbiq avadanlıqları**
- Qarışdırılmış material daşıyıcıları, arabalar
- Kirpi rulo
- Beton kəsic bıçaq
- Dişli yayıcı
- Şap dırmığı
- Dişli mala
- Hamarlayıcı mala

Materialın pompa tətbiq avadanlıqları üçün Sika Texniki Servisi ilə əlaqə saxlayın

### SƏTHİN KEYFİYYƏTİ

**Tətbiq səthləri:**
- Beton
- Sement şapları
- Sürətli qurumalı sement şapları

**Səth keyfiyyəti:**
- Sement tərkibli səthlər, beton və şaplar lazımı müqavimətdə olmalıdır.

Səthlər, təmiz, quru olmalı və kir, yağ, cila, örtüklər, suda həll olunan və suya davamlı yapışqanlar, lak, süd məhsulları, səthi emallar və zəif tutunmuş materiallar kimi bütün çirkləndiricilərdən təmizlənməlidir.

### SƏTH HAZIRLIĞI

- Tətbiq səthinin son teksturası açıq teksturalı və ilişkən olmalıdır. Zəif sementli hamarlayıcı təbəqələri təmizlənməli, gözənəklər və boşluqlar kimi qüsurlar tam ortaya cıxarılmalıdır .
- Səthin hazırlanması üçün uyğun üsullardan istifadə edilməli, səthin növündən asılı olaraq, aşındırıcı qumlama təmizləmə, üyüdücü və ya yonucu, çapıqlayıcı avadanlıqlar ilə hazırlanmalıdır.
- Məhsulu tətbiq etməzdən əvvəl sənaye tozsoran avadanlığı ilə tətbiq səthindən bütün toz, boş və kövrək materiallar təmizlənməlidir.
- Sikafloor®, Sikadur® və Sikagard® çeşidli materiallardan, müvafiq məhsullardan istifadə etməklə gözənək dəlikləri və boşluqlar təmir edilməli və doldurulmalıdır.
- Məhsulu tətbiq etməyə başlamazdan əvvəl bütün təmir materiallarının bərkiməsi və kürlənməsi gözlənilməlidir.
- Beton, sement şapları və normal hopdurucuya malik sürətli qurumalı sement şapları seyreltilmədən SikaLevel®-13 Primer ilə astarlanmalıdır.

### QARIŞDIRMA

Qarışıdırma qabına tələb olunan minimum su miqdarını əlavə edin .
Tək vəya iki avarlı, spiralvari və ya  disk formalı başlıqları olan elektrikli qarışdırıcılardan istifadə edilməlidir. Qarışdırıcı işə salınmalı, toz material yavaş-yavaş əlavə edilərək qarışdırılmalıdır.  2 dəqiqə ərzində, yekcins qarışım əldə olunana qədər qarışdırmağa davam edilməli, lazımı axıcılıq və qatılıq üçün əlavə su miqdarına ehtiyac duyularsa qarışdırma nisbətində bildirilən maksumum miqdara qədər su əlavə edilərək qarışdırılmalıdır. Qarışım 2 dəqiqə dinləndirilməli, daxil olmuş havanın cixması gözlənilməlidir. 1 dəqiqə daha qarışdırılaraq hazır hala gətirilməlidir.

### TƏTBİQ

**Tək qat tətbiq:**
- Qarışdırılmış məhlul səthə boşaldılır.
- Hamarlayıcı mala, sıyırıcı, yayıcı dırmığ, dişli dırmığ vasitəsi ilə lazımı qalınlıqda səthə çəkilir.
- Məhsulun səth üzərində səviyyələnməsinə şərait yaradılmalıdır.
- Dərhal kirpi rulondan istifadə edilərək materialın yayılması, mala izlərinin itirilməsi və hava qabarcıqlarının cıxması təmin edilməlidir.
- Məhlulun kirpi roliklə iynələnməsi əsasən dekor yayıcı istifadə edildiyində lazım olur, iynə səviyyələndirici alət ilə çəkildiyində kirpi rolikdən

istifadəyə ehtiyac duyulmur.

**İki qat tətbiq:**

- Qarışdırılmış məhlul səthə boşaldılır.
- Hamarlayıcı mala, sıyırıcı, yayıcı dırmığ, dişli dırmığ vasitəsi ilə lazımı qalınlıqda səthə çəkilir.
- Məhsulun səth üzərində səviyyələnməsinə şərait yaradılmalıdır.
- Dərhal kirpi rulondan istifadə edilərək materialın yayılması, mala izlərinin itirilməsi və hava qabarcıqlarının cıxması təmin edilməlidir.
- İlk qatın bərkiyərək sərtləşməsi gözlənilməlidir.
- Birinci qatı su ilə 1:1 nisbətində seyreltilmiş Sikafloor®-03 Primer və ya Sikafloor®-01 Primer ilə astarlayın.
- İkinci qat tətbiq edilir. Önəmlidir: iki qat tətbiq zamanı ikinci qatın qalınlığı ilk qatın qalınlığından yüksək olmamalıdır.

### AVADANLIQ TƏMİZLİYİ

İstifadədən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını su ilə təmizləyin. Sərtləşmiş material yalnız mexaniki şəkildə çıxarıla bilər.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12